*“Metafizika” Journal* | ***AcademyGate Publishing***
*Vol 8, issue 8, serial 36, 2025. pp.270-280* | *p-ISSN 2616-6879; e-ISSN 2617-751X*
**UDC:** 323.
**LBC:** 60.52.; 60.54
**MJ №** 406
10.33864/2617-751X.2025.v8.i8.270-280

# POLITICAL ANALYSIS OF THE PROBLEM OF LEGITIMACY OF POWER

**Nadir Mirzalizade***
**Khatira Efendiyeva****

**Abstract.** The article analyzes the “*problem of legitimacy of power*” as one of the most important directions of political science literature. Here, the concept of political power is explained in a theoretical framework in detail. Then, the main features that determine its essence are explained. In addition, the article scientifically analyzes the classical theories of political power, in other words, Max Weber’s theory of legitimacy, David Beetham and Jurgen Habermas’s concepts of legitimacy, and on the basis of these approaches, the history of legitimacy is clarified, and their relevance in the modern era is considered. The main goal of the research is to reveal that legitimacy is not only related to the formal legal framework, but also organically related to social and cultural factors. The article shows on scientific grounds that the phenomenon of legitimacy has become even more acute against the background of globalization, IT and public participation factors. The analysis of ways to protect legitimacy on both a theoretical and practical level reflects the novelty of the article. As a result, it is stated that the phenomenon of legitimacy is considered a strategic resource for the sustainability of political power. The rule of law, the principle of social justice, democratic participation, and the consistency of government decisions with societal values are the main factors that strengthen legitimacy. The study aims to make a scientific contribution to research in the political field.

**Keywords:** political power, legitimacy, theories of legitimacy, mechanisms for protecting power, political stability, political governance

---

* Baku State University, Faculty of International Relations and Economics, PhD student in the specialty "political theory" of the Department of Political Science and Sociology; Baku, Azerbaijan (corresponding author)
-mail: nadirmirzalizade@gmail.com
https://orcid.org/0009-0008-5622-2151
** Doctor of Philosophy in Philosophy, Associate Professor,
Baku State University, Faculty of International Relations and Economics, Lecturer, Department of Political Science and Sociology; Baku, Azerbaijan
E-mail: xatirabdu@hotmail.com
**To cite this article:** Mirzalizade, N., & Efendiyeva, Kh. [2025]. POLITICAL ANALYSIS OF THE PROBLEM OF LEGITIMACY OF POWER. *“Metafizika” journal, 8*(8), pp.270-280.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i8.270-280

***Article history:***
*Received: 12.09.2025*
*Accepted: 20.10.2025*
*Published: 01.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**УДК:** 323.
**ББК:** 60.52.; 60.54
**MJ №** 406
10.33864/2617-751X.2025.v8.i8.270-280

# ПОЛИТИЧЕСКИЙ АНАЛИЗ ПРОБЛЕМЫ ЛЕГИТИМНОСТИ ВЛАСТИ

**Надир Мирзализаде***
**Хатира Эфендиева****

**Абстракт.** В статье анализируется «проблема легитимности власти» как одно из важнейших направлений политологической литературы. В статье подробно излагается понятие политической власти в теоретическом плане. Далее раскрываются основные признаки, определяющие её сущность. Кроме того, в статье проводится научный анализ классических теорий политической власти, а именно теории легитимности Макса Вебера, концепций легитимности Дэвида Бетама и Юргена Хабермаса, и на основе этих подходов проясняется история легитимности и рассматривается её актуальность в современную эпоху. Главная цель исследования- выявить, что легитимность не только связана с формально-правовой базой, но и органически связана с социальными и культурными факторами. В статье научно обосновано показано, что феномен легитимности ещё более обострился на фоне глобализации, развития информационных технологий и факторов общественного участия. Анализ способов защиты легитимности как на теоретическом, так и на практическом уровне отражает новизну статьи. В результате исследования установлено, что феномен легитимности рассматривается как стратегический ресурс устойчивости политической власти. Верховенство права, принцип социальной справедливости, демократическое участие и соответствие государственных решений общественным ценностям являются основными факторами, укрепляющими легитимность. Цель исследования – внести научный вклад в исследования в области политики.

**Ключевые слова:** политическая власть, легитимность, теории легитимности, механизмы защиты власти, политическая стабильность, политическое управление

* Бакинский государственный университет, факультет международных отношений и экономики, аспирант по специальности «политическая теория» кафедры политологии и социологии; Баку, Азербайджан (ответственный автор)
E-mail: nadirmirzalizade@gmail.com
https://orcid.org/0009-0008-5622-2151
** доктор философии по философии, доцент,
Бакинский государственный университет, факультет международных отношений и экономики, преподаватель, кафедра политологии и социологии; Баку, Азербайджан
E-mail: xatirabdu@hotmail.com

**Цитировать статью:** Мирзализаде, Н., & Эфендиева, Х. [2025]. ПОЛИТИЧЕСКИЙ АНАЛИЗ ПРОБЛЕМЫ ЛЕГИТИМНОСТИ ВЛАСТИ. *Журнал «Metafizika», 8*(8), с.270-280.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i8.270-280

***История статьи:***
*Статья поступила в редакцию: 12.09.2025*
*Отправлена на доработку: 20.10.2025*
*Принята для печати: 01.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**UOT:** 323.
**KBT:** 60.52.; 60.54
**MJ №** 406
10.33864/2617-751X.2025.v8.i8.270-280

# HAKİMİYYƏTİN LEGİTİMLİYİ PROBLEMİNİN SİYASİ TƏHLİLİ

**Nadir Mirzəlizadə***
**Xatirə Əfəndiyeva****

**Abstrakt.** Məqalədə "*hakimiyyətin legitimliyi problemi*" politoloji ədəbiyyatların ən vacib istiqamətlərindən biri kimi təhlil edilir. Burada siyasi hakimiyyət anlayışı nəzəri çərçivədə geniş şəkildə izah edilmişdir. Daha sonra onun mahiyyətini müəyyən edən əsas xüsusiyyətlər izah edilmişdir. Məqalədə əlavə olaraq siyasi hakimiyyətin klassik nəzəriyyələri başqa sözlə Maks Veberin legitimlik nəzəriyyəsi, David Betham və Yurqen Habermasın legitimlik konsepsiyaları elmi şəkildə təhlil olunmuşdur ki, bu yanaşmalar əsasında legitimliyin tarixi aydınlaşdırılmış, onların müasir dövrdə aktuallığına nəzər salınmışdır. Aparılan araşdırmanın əsas məqsədi legitimliyin təkcə formal hüquqi çərçivə ilə bağlı olmadığını, onun həmçinin sosial, mədəni amillərlə üzvi surətdə bağlı olduğunu üzə çıxarmaqdır. Məqalədə legitimlik fenomeninin qloballaşma, İT və ictimai iştirakçılıq amilləri fonunda daha da kəskinləşdiyi elmi əsaslarla göstərilmişdir. Legitimliyin qorunması yollarının həm nəzəri, həm də praktiki müstəvidə təhlil edilməsi məqalənin yeniliyi özündə əks elətdirir. Nəticədə bildirilir ki, siyasi hakimiyyətin davamlılığı üçün legitimlik fenomeni strateji resurs hesab olunur. Qanunçuluq, sosial ədalət prinsipi, demokratik iştirakçılıq, cəmiyyətin dəyərləri ilə hakimiyyətin qərarlarının uyğunluğu legitimliyi möhkəmləndirən əsas faktorlardır. Tədqiqat siyasi sahədə aparılan araşdırmalara elmi töhfə vermək məqsədi daşıyır.

**Açar sözlər:** siyasi hakimiyyət, legitimlik, legitimlik nəzəriyyələri, hakimiyyətin qorunma mexanizmləri, siyasi sabitlik, siyasi idarəetmə

---

* Bakı Dövlət Universiteti, Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsi, "Politologiya və sosiologiya kafedrası"nın "siyasi nəzəriyyə" ixtisası üzrə doktorantı; Bakı, Azərbaycan (məsul müəllif)
E-mail: nadirmirzalizade@gmail.com
https://orcid.org/0009-0008-5622-2151
** fəlsəfə üzrə fəlsəfə doktoru, dosent,
Bakı Dövlət Universiteti, Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsi, "Politologiya və sosiologiya kafedrası"nın müəllimi; Bakı, Azərbaycan
E-mail: xatirabdu@hotmail.com

**Məqaləyə istinad:** Mirzəlizadə, N., & Əfəndiyeva, X. [2025]. HAKİMİYYƏTİN LEGİTİMLİYİ PROBLEMİNİN SİYASİ TƏHLİLİ. *"Metafizika" jurnalı, 8*(8), səh.270-280.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i8.270-280

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 12.09.2025*
*Təkrar işlənməyə göndərilmişdir: 20.10.2025*
*Çapa qəbul edilmişdir: 01.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Siyasi elmin əsas tədqiqat istiqamətlərindən biri hakimiyyətin legitimliyi fenomeni hesab olunur. Legitimlik anlayışı dövlətin və siyasi institutların cəmiyyət tərəfindən qəbul olunmasıdır. Hakimiyyətinin qanuni, ədalətli olması onun legitimliyini şərtləndirir. Müasir dövrdə legitimliyin qorunması hüquqi, siyasi, sosial, mədəni və ideoloji faktorlarla sıx şəkildə əlaqəlidir. Cəmiyyətin tərəfindən hakimiyyətə etimad, siyasi sistemə olan inam dövlətin siyasi sabitliyi və inkişafı üçün həyati əhəmiyyətli amildir. Siyasət nəzəriyyələrində legitimlik problemi həm tarixi kontekstdə, həm də çağdaş proseslər fonunda müxtəlif yanaşmalarla izah edilir. Klassik nəzəriyyələr legitimlik anlayışını ənənə və hüquq çərçivəsində izah edir. Müasir tədqiqatlarda isə bu fenomen ictimai rəyin formalaşması, vətəndaş iştirakçılığı və siyasi institutların effektiv fəaliyyəti mövqeyindən izah olunur ki, qloballaşma və informasiya cəmiyyətinin təsiri legitimlik anlayışının yeni müstəvilərdə təhlilini zəruri edir.

Siyasi hakimiyyətin legitimliyi probleminin öyrənilməsi həm nəzəri, həm də praktiki baxımdan xüsusi əhəmiyyətə malikdir. Nəzəri cəhətdən bu anlayış siyasi hakimiyyətin mahiyyətini açmağa imkan yaradır. Praktiki müstəvidə isə dövlət idarəçiliyinin səmərəliliyinə və ictimai münasibətlərin sabitliyinə birbaşa təsir göstərir. Buna görədə, legitimlik anlayışının ayrıca bir tədqiqat mövzusu kimi öyrənilməsi siyasi praktikaya dəyərli töhfə verir.

## 2.Siyasi hakimiyyət anlayışı

Siyasi hakimiyyət cəmiyyətin siyasi təşkilatlanmasının əsas sütunlarından birdir. İctimai münasibətlərin tənzimlənməsində siyasi hakimiyyətin əvəzsiz rolu vardır. *Siyasi hakimiyyət dövlətin və siyasi institutların cəmiyyət üzərində qərar qəbul etmə, həmin qərarların icrasını təmin etmə və ictimai nizamı qoruma qabiliyyətidir*. Klassik nəzəriyyələrdə siyasi hakimiyyət əsasən məcburetmə mexanizmləri ilə izah edilir. Lakin hakimiyyətin bu növu yalnız məcburetmə metodlarına deyil, sosial razılaşma, legitimlik eləcədə ictimai dəstəyə əsaslanır ki, siyasi hakimiyyətin məqsədi dövlət idarəçiliyində sabitliyi təmin etmək, ictimai maraqları uzlaşdırmaq və cəmiyyətin davamlı inkişafına şərait yaratmaqdır. Müasir politologiya isə onu çoxşaxəli sosial münasibətlər sistemi kimi dəyərləndirir. Politoloji ədəbiyyatlarda siyasi hakimiyyət iqtisadi, hüquqi, ideoloji və təşkilati faktorların qarşılıqlı təsiri kimi izah edilir. Bu baxımdan siyasi hakimiyyət idarəçilik funksiyası, eləcə də ictimai legitimliklə əlaqəli sosial institut kimi çıxış edir. Onun effektivliyi birbaşa olaraq vətəndaşların inamı, hüquqi baza və dövlət institutlarının fəaliyyət keyfiyyəti ilə qəti surətdə bağlıdır [Weber, 1978, s.212-220]. Veber göstərir ki, siyasi hakimiyyət müəyyən insan qrupu tərəfindən verilən göstərişlərin yerinə yetirilməsi ehtimalına əsaslanır. Bu, yalnız güc və yaxudda təsir forması deyil. O, idarəetmə və itaət münasibətlərini özündə birləşdirən legitim hakimiyyət

növüdür [Weber, 1978, s.212]. Hakimiyyətin sabitliyi və davamlılığı üçün ictimai legitimliyin qorunması əsas şərtdir.

Siyasi hakimiyyət cəmiyyətin idarə edilməsində əsas rol oynayır. Siyasi hakimiyyət bir sıra funksiyalar yerinə yetirir. Elmi ədəbiyyatlarda siyasi hakimiyyətin funksiyaları aşağıdakı kimi təsnif olunur:

1. Qərarların qəbul olunması funksiyası
2. İcra və nəzarətedici funksiyası
3. Təşkilati və kordinasiya edici funksiya
4. Legitimliyi təmin olunması funksiyası
5. Sosial inteqrasiya və resursların bölüşdürülməsi funksiyası
6. İctimai nəzarət funksiyası

**3.Siyasi hakimiyyətin legitimliyinin klassik nəzəriyyələri**

Siyasi hakimiyyətin legitimliyi fenomeninin klassik nəzəri bazasına Maks Veber, David Betham, Yurqen Habermas kimi mütəfəkkirlərin elmi əsərləri daxildir.

XX əsrin əvvəllərində Maks Veber siyasi sosiologiyanın əsasını qoydu. Veberin siyasi hakimiyyət və legitimlik haqqında görüşü politoloji ədəbiyyatlarda və sosiologiyada geniş əks səda doğurmuşdur. O göstərir ki, legitimlik hakimiyyətin əsasını təşkil edir. Veberə görə, gücün davamlı olması üçün sadəcə zor tətbiqi kifayət etmir. Veberə görə, hakimiyyət iki tərəfin qarşılıqlı münasibətindən ibarətdir; hökm edən və itaət edən tərəflər. Maks Veber qeyd edir ki, hakimiyyət yalnız o halda stabil olur ki, idarə olunanlar onu qəbul edir və ona itaət etməyi daxili zərurət kimi anlıyır[10]. Başqa sözlə desək, siyasi hakimiyyətin legitimliyi o zaman formalaşır ki, xalq müəyyən bir idarəetmə formasını qanuni, ədalətli və məqbul hesab etsin. İtaətin davamlı olması isə ancaq zorun tətbiqi ilə deyil, həm də həmin zor gücünün qanuni hesab olunması ilə mümkündür. Ona görə də hakimiyyət yalnız gücə söykənmir. Bu prosesi anlamaq üçün siyasi hakimiyyətin üç əsas formasını göstərmişdir:

Rasional-hüquqi (leqal), ənənəvi və xarizmatik.

Siyasi hakimiyyətin rasional-hüquqi (leqal) forması müasir dövrdə ən geniş yayılmış formadır. Bu cür hakimiyyət formasında lider qanunlara, hüquqi prosedurlara və rəsmi qaydalara söykənir. Dövlət institutlarının fəaliyyəti məhz yazılı hüquq normaları (konstitusiya) ilə tənzimlənir. Vətəndaşlar bu qaydaları legitim hesab etdikləri üçün itaət edirlər.

Ənənəvi hakimiyyətdə lider dövlət idarəçiliyində tarixi adət-ənənələrə, nəsildən-nəslə ötürülən qaydalara və normalara əsaslanır. Monarxiya idarəetməsi üsulu burada ən bariz nümunədir. Burada insanlar qanunu deyil, keçmişdən gələn müqəddəs ənənələri əsas kimi qəbul edirlər.

Xarizmatik hakimiyyət formasında liderin şəxsi keyfiyyətləri və fövqəladə xüsusiyyətləri ön plana çəkilir. Xarizma yunanca “allah vergisi” deməkdir.

İnsanlar belə şəxsə inanır və ona sadiq qalırlar. Lideri qeyri-adi, ilhamverici və xüsusi missiya daşıyan şəxs kimi görürlər. Hər hansı bir gözəl şəxs, demaqoq, natiq və yaxud varlı şəxs insanlar üçün xarizmalı ola bilər.

Maks Veberin yanaşmasına görə legitimlik sadəcə “qəbul edilmişlik” deyil. Legitimlik həmçinin sosial dəstək və mədəni inamla bağlıdır. Siyasi hakimiyyətin müxtəlif formaları fərqli mənbədən legitimlik qazanır. Ənənəvi hakimiyyət adət-ənənə və mədəni inamdan, xarizmalı hakimiyyət liderin şəxsi xarizması və onu izləyənlərin inamı ilə rasional-hüquqi hakimiyyət isə qanunvericilik və rəsmi prosedurların qəbulundan.

Veberin konsepsiyasına görə, legitimlik bəzi hallarda zəifləyə də bilər. Siyasi hakimiyyətin ənənəvi forması modernləşmə və adətlərin dəyişməsi ilə sarsıla bilər. Xarizmalı hakimiyyətdə liderin həyatını itirməsi və ya ona qarşı olan inamın itməsi sistemi zədələyə bilər. Hakimiyyətin rasional-leqal formasında isə rüşvət, korrupsiya və.s kimi hallar legitimliyi sarsa bilər. Veber göstərir ki, demokratik dövlətlərdə rasional-leqal legitimlik əsas rol oynayır, avtoritar sistemlərdə isə ənənəvi və xarizmalı legitimlik daha çox müşahidə olunur [10].

Politoloji ədəbiyyatlarda legitimlik fenomenini sistemli şəkildə izah edən alimlərdən David Betham adını çəkmək yerinə düşər. Bethamın “Gücün Legitimliyi” əsəri hakimiyyətin mahiyyətini və legitimlik mexanizmlərini anlamaq üçün mühüm əhəmiyyət kəsb edir. Bethamın yanaşması ilə Maks Veberin legitimlik nəzəriyyəsi arasında bir sıra fərqlər vardır. Betham Maks Veberin hakimiyyətin üç formasını (ənənəvi, rasional-leqal, xarizmalı) ayırmasını kifayət qədər məhdud hesab edirdi. Bentam legitimliyin sadəcə inam və itaət məsələsi üzərində qurulmadığını deyir. O, legitimliyi normativ və institusional ölçüləri olan çoxşaxəli bir anlayış kimi qəbul edirdi.

Bethama görə legitimliyin üç əsas ölçüsü var. Birinci qaydaların qanuniliyidir, başqa sözlə desək siyasi hakimiyyət o zaman legitim sayıla bilər ki, o, yalnız qəbul olunmuş hüquqi və institusional çərçivələrə uyğun fəaliyyət göstərsin. İkinci hakimiyyətin normativ əsaslandırılması daha dəqiq desək siyasi hakimiyyətin fəaliyyəti cəmiyyətin əsas dəyərləri, əxlaqi normaları və ümumi qəbul olunmuş prinsiplərlə uyğun olmalıdır. Sonuncu razılıq və dəstəyin mövcudluğudur [1]. Hakimiyyət yalnız idarə olunanlar onu qəbul etdikdə, ona razılıq verdikdə və müəyyən mənada dəstək göstərdikdə legitim hesab edilə bilər. Bu üç ölçü birlikdə göstərir ki, siyasi hakimiyyətin legitimliyi yalnız formal hüquqi mexanizmlərə arxalanmır. O, ictimai etimad, dəyərlərlə uyğunluq və demokratik dəstək tələb edir. Betham belə qənaətə gəlir ki, bu üç şərtin vəhdəti hər hansı siyasi sistemin dayanıqlığı olmasını təmin edir. Burada qaydalar pozulduqda, dəyərlərdə ziddiyyət yarandıqda həmçinin ictimai razılıq zəiflədikdə, hakimiyyət legitimlik böhranı ilə üzləşir [1].

Beləliklə, politoloji ədəbiyyatda Bethamın nəzəriyyəsi siyasi legitimliyi həm hüquqi, həm normativ, həm də sosial müstəvidə izah edir. Bu legitimliyin daha geniş və analitik şəkildə başa düşülməsinə imkan yaradır.

Yurqen Habermas legitimlik anlayışını siyasi nəzəriyyədə yeni müstəviyə gətirən ən mühüm nəzəriyyəçidir. O da Veber və Betham kimi "legitimlik sadəcə hüquqi qaydalara itaət və ya gücün qəbul olunması ilə məhdudlaşmır" fikrinin tərəfdarı idi. Demokratik cəmiyyətdə legitimlik vətəndaşların fəal iştirakı, ünsiyyət prosesləri və ictimai razılıq əsasında formalaşır fikri Yurqenin nəzəriyyəsinin əsasını təşkil edirdi. O, "Kommunikativ fəaliyyət" və "Legitimlik böhranı" əsərlərində legitimlik anlayışını ətraflı şəkildə izah etmişdir.

Nəzəriyyələrdə qeyd olunur ki, dövlətin qərarları ilə cəmiyyətin gözləntiləri arasında ziddiyyət yarandıqda cəmiyyətlərdə legitimlik böhranı ortaya çıxır[4]. Habermas dövlət yalnız inzibati və texnokratik qərarlarla idarəçiliyi həyata keçirdikdə ictimai rəy və vətəndaşların iştirak imkanları nəzərə almadıqda legitimliyin zəiflədiyini qeyd edir. Bu mənada o, legitimlik anlayışını kommunikativ rasionallıq əsasında izah etməyə çalışır. Başqa sözlə desək, Habermasa görə siyasi hakimiyyətin legitimliyi ancq güc və ənənə ilə deyil, ictimai diskurs və müzakirələr nəticəsində formalaşmalıdır [4].

Legitimliyin əsas şərti Habermasa görə deliberativ demokratiya prinsipidir. Bu prinsip göstərir ki, vətəndaşlar siyasi qərarların qəbulunda iştirak etməlidir. Bundan savayı müxtəlif fikir və mövqelər açıq müzakirədə toqquşmalı və nəticədə ümumi razılıq formalaşmalıdır [5]. Qərarların legitimliyi o zaman zəif olur ki, ictimai müzakirə olmadan, yalnız inzibati aparat tərəfindən verilir. O, bildirir ki, legitimliyin qorunması üçün dövlətin fəaliyyəti ancaq iqtisadi və inzibati səmərəliliklə ölçülə bilməz. Habermasın yanaşması göstərir ki, müasir demokratik sistemlərdə legitimliyin özəyi yalnız hüquqi qaydalar deyil, həm də açıq kommunikasiya və iştirakçı demokratiyadır. Legitimliyi kommunikativ ünsiyyətə əsaslanan sosial razılıq kimi izah edən Habermas öz legitimlik nəzəriyyələri ilə demokratik idarəetmənin dayanıqlığı üçün nəzəri baza yaradır [5].

**4.Müasir dövrdə hakimiyyətin legitimlik problemi**

Hakimiyyətin legitimliyi problemi müasir siyasət elmin ən vacib məsələlərindən biri olaraq öz aktuallığını qoruyur. XXI əsrdə cəmiyyətlərin inkişaf dinamikası, qloballaşma, İKT-in təsiri və sosial-siyasi dəyərlərin dəyişməsi hakimiyyətin legitimliyi ilə bağlı yeni məsələlər gətirmişdir. Qeyd etmək lazımdır ki, klassik dövrlərdə legitimlik əsasən ənənələr, dini inanclar əsasında formalaşırdısa, müasir zamanda bu baza kifayət etmir. Siyasi münasibətlərin mürəkkəbləşməsi, insanların dövlət qarşısında tələblərinin artması həmçinin siyasi institutların daha aktiv rol oynaması siyasi hakimiyyətin qanuniliyini bu günlərdə daha həssas məsələyə çevirmişdir [7].

Çox zaman legitimlik böhranları avtoritar rejimlərlə əlaqələndirilir. Buna baxmayaraq demokratik rejimli ölkələrdə də bu problemlər mövcuddur. Məsələn, demokratik ölkələrdə idarəetmənin əsası hesab olunan seçki institutunun şəffaflığına qarşı inam azaldıqda, hakimiyyətin legitimliyi də zəifliyir [9]. Misal üçün, Birləşmiş Ştatlarda 2020-ci il prezident seçkiləri keçirildikdən sonra Donald Tramp tərəfdarlarının nəticələri qəbul etməməsi daha sonra isə nöbəti ilin yanvar ayında Konqres binasına hücum etməsi, demokratik ənənələrin bu qədər güclü olduğu ABŞ də belə legitimlik böhranının baş verə biləcəyini göstərdi. Bu seçkilər zamanı hüquqi çərçivənin olması, ictimai razılıq və qəbul zəiflədiyindən legitimliyin sarsılmasının qarşısını ala bilmədi.

Digər bir nümunə kimi Aİ ölkələrini verə bilərik. Beləki, 2015-ci ildən sonra miqrasiya böhranı Avropada xüsusilə qərb dövlətlərində siyasi böhranlara səbəb oldu. Qərbi Avropa ölkələrində hökumətlərin qəbul etdiyi qərarlar əhalinin geniş kütlələri tərəfindən etirazla qarşılandı. Bu kimi hallar göstərir ki, hətta qanuni və rasional qərarlar belə millətin dəyərlərinə uyğun gəlmədiyi zaman legitimlik sarsıla bilir.

Avtoritar və yarım-avtoritar idarəçiliyə malik ölkələrdə legitimlik problemləri daha dərindir [9]. Bu cür rejimlərə malik dövlətlər bir çox hallarda legitimliyi zor vasitəsilə və ya ideoloji nəzarətlə qoruyub saxlamağa çalışırlar. Burada hakimiyyət ciddi böhranla üzləşir ki, iqtisadi böhran, korrupsiya, ictimai etimadın azalması və beynəlxalq təzyiqlər bu legitimliyin dahada sarsılmasına yol açır. Məsələn, Ərəb Baharı hadisələri (2010-2011-ci illər) zamanı ərəb ölkələrində kəskin legitimlik böhranını üzə çıxardan amil məhz avtoritar rejimin mövcudluğu olmuşdur. Onilliklər boyu davam edən zorakı legitimlik cəmiyyətin sosial-iqtisadi tələblərinə cavab vermədi, kütləvi etirazlar başladı və rejimlər süquta uğradı. Digər nümunə isə Venesueladır. 15 il öncə başlayan iqtisadi böhran, korrupsiya və siyasi qarşıdurmalar hökumətin legitimliyini zəiflətdi və ona qarşı olan inamı azaltdı. Baxmayaraq ki, prezident seçkiləri keçirilirdi, nəticələr beynəlxalq aləmdə və daxildə ciddi etiraza səbəb olurdu. Burada Bethamın “ictimai razılıq” prinsipinin pozulmasının legitimliyi necə sarsıtdığı fikri ortaya çıxır.

Qloballaşma müasir zamanın legitimlik problemlərinə təsir edən əsas faktorlardan biridir. Müasir dövrdə dövlətlərin daxili legitimliyini həm gücləndirə, həm də zəiflədə bilən amillərdən informasiya axınının sürətlənməsi, sosial şəbəkələrin genişlənməsi və beynəlxalq təşkilatların artan rolunun adını çəkmək olar. Sosial media platformaları (İnstagram, TikTok, Facebook, X və.s) vətəndaşlara hakimiyyətin fəaliyyətini daha yaxından izləmək və tənqid etmək imkanı verir ki, bu, şəffaflıq baxımından pozitiv təsir göstərir. Sosial media eyni zamanda yanlış informasiya, dezinformasiya və populizmin yayılması ilə də legitimlik böhranlarını gücləndirə də bilir.

Birləşmiş Krallığın "Brexit" prosesi bunun bariz nümunələrindən biridir. Böyük Britaniyada Aİ-dan çıxmaqla bağlı referenduma aparan prosesdə sosial mediada platformalarında yayılan yalan məlumatlar ictimai rəyin formalaşmasına ciddi təsir göstərdi. Nəticədə hökümətin legitimliyi uzun müddət müzakirə mövzusu oldu.

Müasir dövrdə legitimlik problemləri ilə üzləşən ölkələrdən biri də Azərbaycandır. 1991-ci ildən sonra Azərbaycan Respublikasının legitimlik mənbələri əsasən milli dövlətçiliyin qorunması, sabitliyin təmin olunması və iqtisadi inkişafla bağlı olmuşdur. Müstəqillik dövründə seçkilərin şəffaflığı, siyasi plüralizmin gücləndirilməsi, vətəndaş iştirakçılığının artırılması kimi amillər legitimliyin daha dayanıqlı əsasda möhkəmləndirilməsi üçün şərait yaratdı [Hüseynov, 2020, s.67-79].

**5.Hakimiyyətin legitimliyinin qorunması yolları**

Hər bir siyasi sistemin davamlı olmasını təmin edən əsas faktorlardan biri hakimiyyətin legitimliyidir [2]. Dövlət institutlarının səmərəli fəaliyyəti, ictimai sabitlik, uzunmüddətli inkişaf legitim hakimiyyət olmadan mümkünsüzdür. Qloballaşma prosesi, İKT-in artan təsiri, vətəndaşların siyasi tələblərinin yüksəlməsi müasir dövrdə siyasi hakimiyyətin legitimliyini qorumağın çox mürəkkəb vəzifəyə çevrildiyini göstərir və legitimlik məsələsini möhkəmləndirmək üçün həm nəzəri, həm də praktiki müstəvidə davamlı tədbirlər tələb edilir [Əliyev, 2018, s.45-57].

Birincisi, legitimliyin ən əsas şərti qanunçuluğun təmin olunmasıdır. Başqa sözlə desək, siyasi hakimiyyət o halda qəbul edilən hesab olunur ki, fəaliyyətini yalnız hüquqi çərçivədə həyata keçirsin. Legitimliyi zəiflədən digər amil kimi qanunların seçici şəkildə tətbiqi, korrupsiya, hüquq bərabərliyinin pozulması və.s göstərmək olar. Şəffaf və obyektiv hüquqi mühiti legitimliyin qorunmasının ilkin etabı hesab edə bilərik.

Digər vacib faktor sosial ədalət və rifahın təmin olunması amilidir. Siyasi hakimiyyət mühitin sosial ehtiyaclarına cavab verməlidir. İqtisadi sabitlik və bərabər imkanlar yaratmalıdır çünki sosial problemlərin həll olunmaması legitimliyin zəifləməsinə daha sonra isə ictimai narazılıqların artmasına səbəb olur. Vətəndaşlar dövlətə gündəlik həyatlarının yaxşılaşdırılması prizmasından yanaşdıqda dövlətlərinin legitimliyi daha dayanıqlı olur.

İctimai iştirakçılığın genişləndirilməsini legitimliyin qorunmasının üçüncü istiqaməti kimi verə bilərik. Burada Habermasın bu fikri yerinə düşər "müasir dövrdə legitimlik yalnız inzibati qərarlarla deyil, ictimai razılıq və kommunikativ müzakirələrlə formalaşır" [5]. Legitimliyi qoruyub saxlayan amillər kimi demokratik institutların gücləndirilməsi, seçkilərin şəffaf keçirilməsi, vətəndaş cəmiyyətinin fəaliyyəti və ictimai müzakirə platformalarının yaradılmasını sadalamaq olar.

Mədəni və dəyərlər uyğunluğunu ən əsas məqamlardan biri kimi sadalamaq olar. Yəni siyasi hakimiyyət cəmiyyətin əsas dəyərləri ilə ziddiyyət təşkil edən qərarlar qəbul edərsə bu legitimliyi zəiflədəcək. Elə buna görə də idarəetmə yalnız hüquqi və iqtisadi çərçivə ilə məhdudlaşmamalıdır. O, həm də mənəvi və mədəni legitimliyi təmin etməlidir.

Sonuncu olaraq qloballaşma şəraitində legitimliyi qorumaq üçün ölkələrin beynəlxalq arenada da qəbul edilməsi lazımdır. Xarici siyasətdə etimad, beynəlxalq hüquqa hörmət, əməkdaşlıq və.s kimi amillər daxili legitimliyə ciddi sürətdə təsir göstərir.

Qeyd olunmalıdır ki, legitimliyin qorunması yalnız dövlətin işi deyil, o həm də cəmiyyətin fəal iştirakı ilə də üzvi surətdə bağlıdır [8]. Burada dövlət qanuni və sosial ədalətli idarəçilik təqdim etməlidir ki, vətəndaşlar da öz növbəsində siyasi proseslərdə məsuliyyətli şəkildə iştirak edib legitimliyə müsbət şəkildə təsir göstərsinlər. Təkcə bu halda legitimlik dayanıqlı olar həmçinin siyasi sabitlik uzun müddət təmin edilə bilər.

**6.Nəticə**

Nəticə olaraq onu qeyd edə bilərəmki bu gün siyasi hakimiyyətin legitimliyi problemi politologiyada ən mühüm nəzəri və praktiki mövzulardan biri kimi öz aktuallığını qoruyur. Legitimliksiz heç bir hakimiyyət öz davamlılığını təmin edə bilməz. Apardığım araşdırmalar göstərir ki, legitimlik anlayışı həm tarixi, həm də müasir kontekstdə müxtəlif nəzəriyyələrlə izah edilir. Lakin bu yanaşmalar mahiyyət etibarı ilə eyni qalmışdır; cəmiyyətin hakimiyyəti qəbul etməsi və ona etimad göstərməsi.

Maks Veber kimi alimlərin klassik nəzəriyyələri xüsusilə ənənəvi, xarizmalı və rasional-legal legitimlik formaları bu problemin ilkin əsaslarını ortaya çıxardır. Başqa bir tərəfdən isə, müasir dövrdə legitimlik problemləri (qloballaşma, informasiya axınlarının sürətlənməsi, ictimai tələblərin artması və siyasi iştirakçılığın dərinləşməsi) yeni ölçülər qazanmışdır.

Siyasi hakimiyyətin öz legitimliyinin qorunması yolları yalnız hüquqi çərçivənin təmin edilməsi ilə məhdudlaşdırılmamalıdır. Buraya sosial ədalətin bərpasını, iqtisadi sabitliyi, vətəndaş cəmiyyətinin gücləndirilməsini, demokratik institutların inkişafını və.s kimi faktorlarda artırılmalıdır. Müasir dövrdə kommunikativ fəaliyyət və ictimai razılıq legitimliyinən vacib elementlərinə çevrilmişdir.

Son olaraq onu qeyd edim ki, legitimlik fenomeni siyasi hakimiyyətin davamlılığını təmin edən ən əsas resursdur. Dövlətlər legitimliyi qorunmaq üçün təkcə hüquqa deyil, həm də cəmiyyətin dəyərlərinə, beynəlxalq mühitin tələblərinə uyğun siyasət aparmalıdırlar. Bu kimi yanaşma legitimliyin qərarlaşmasına, siyasi sabitliyin dayanığlı olmasına və demokratik inkişafın təmin edilməsinə əsas yaradır.

## 7.ƏDƏBİYYAT

1. Beetham, D. (1991). *The legitimation of power*. London: Macmillan.
2. Easton, D. (1965). *A systems analysis of political life*. New York: Harper & Brothers.
3. Əliyev, R. (2018). Müasir dövrdə hakimiyyətin legitimlik problemləri. *Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, Sosial Elmlər Seriyası, 3*(2), 45-57.
4. Habermas, J. (1973). *Legitimation crisis*. Boston: Beacon Press.
5. Habermas, J. (1981). *The theory of communicative action* (Vols. 1-2). Boston: Beacon Press.
6. Hüseynov, E. (2020). Azərbaycan dövlətçiliyində siyasi legitimliyin təzahür formaları. *Bakı Dövlət Universiteti Elmi Əsərlər: Hüquq və Siyasi Elmlər Seriyası, 4*(1), 67-79.
7. Kaya, S. (2017). *Siyasal güç, meşruiyet ve kamu politikaları*. İstanbul: İmaj Yayıncılık.
8. Lipset, S. M. (1960). *Political man: The social bases of politics*. Garden City, NY: Doubleday.
9. Norris, P. (2011). *Democratic deficit: Critical citizens revisited*. Cambridge: Cambridge University Press.
10. Weber, M. (1978). *Economy and society: An outline of interpretive sociology*. Berkeley: University of California Press, 212-300.

## REFERENCES

1. Beetham, D. (1991). *The legitimation of power*. London: Macmillan. (in English)
2. Easton, D. (1965). *A systems analysis of political life.* New York: Harper & Brothers. (in English)
3. Aliyev, R. (2018). Problems of legitimacy of power in the modern era. *News of the Azerbaijan National Academy of Sciences, Series of Social Sciences, 3*(2), 45-57. (in Azerbaijani)
4. Habermas, J. (1973). *Legitimation crisis.* Boston: Beacon Press. (in English)
5. Habermas, J. (1981). *The theory of communicative action* (Vols. 1–2). Boston: Beacon Press. (in English)
6. Huseynov, E. (2020). Forms of manifestation of political legitimacy in Azerbaijani statehood. *Scientific Works of Baku State University: Series of Law and Political Sciences, 4*(1), 67–79. (in Azerbaijani)
7. Kaya, S. (2017). *Political power, legitimacy, and public policies.* Istanbul: Imaj Publishing. (in Turkish)
8. Lipset, S. M. (1960). *Political man: The social bases of politics.* Garden City, NY: Doubleday. (in English)
9. Norris, P. (2011). *Democratic deficit: Critical citizens revisited.* Cambridge: Cambridge University Press. (in English)
10. Weber, M. (1978). *Economy and society: An outline of interpretive sociology.* Berkeley: University of California Press, 212–300. (in English)